# 100 yaşlı veteran



Böyük Vətən Müharibəsi veteranları həyatımızın bəzəyidirlər. Vətənimizin layaqətli, şərəfli övladlarıdırlar. Onlar illərin sınaqlarından uğurla çıxmış, ömürlərini mənalı keçirmiş, özlərindən sonra gələcək nəsillərə yeni yollar, cığırlar açaraq bir ailənin, bir tayfanın ağsaqqalından, ağbirçəyindən birinə çevrilmişlər. Bu yazıda biz ən yüksək iradi və əxlaqi keyfiyyətləri ilə nəsillərə nümunə olan, xalqımızın ləyaqət və qəhrəmanlıq simvoluna çevrilən, 100 yaşlı Böyük Vətən Müharibəsi veteranı, sinəsini cəbhənin orden və medalları bəzəyən Hilal İbrahimovun ömür yolundan söhbət açacağıq.

Biz faşizm üzərində tarixi qələbənin ildönümü ərəfəsində Hilal İbrahimovla Nəsimi rayonundakı 3-cü mikrorayon bazarının yaxınlığındakı yaşayış binasının dördüncü mərtəbəsində görüşdük.

Müharibə veteranı, ucaboylu, danışığı, qəddi-qaməti yerində olan Hilal kişi bizi çox mehribanlıqla qarşıladı.

—Ay qızım, Zeynəb bala, bizə bir yaxşı kəklikotu çayı dəmlə, deyəsən jurnalist qonağımız ömür kitabımı vərəqləyib, məni keçmişə, odlu səngərlərə, cəbhənin qaynar nöqtələrinə aparıb çıxaracaqdır, —deyə veteran Hilal İbrahimov yaxınlaşaraq, bizlə üzbəüz əyləşdi.

Bu an telefonun cingiltili səsi eşidildi. O, ehmalca dəstəyi qaldırdı və dodaqaltı gülümsündü. Danışan veteran yoldaşlarından biri idi. Dostu Hilala bildirdi ki, iki gün sonra biz veteranlar rayon icra hakimiyyəti tərəfindən qələbə günü bayramına dəvət olunuruq, mütləq gələrsiniz.

Hilal İbrahimov isə cavabında:

—Mərasimə çox həvəslə hazırlaşıram. İnşallah, görüşərik...

Keçmiş döyüşçünün kövrək xatirələri dilə gəldi. O, bildirdi ki, bir əsr əvvəl—1915-ci ildə Ağcabədi rayonunun Sarcalar kəndində dünyaya göz açıb. Uşaqlıq illəri həmişə təbiətin romantik qoynunda keçib. Göy çəmən döşəyi, sal daşlar yastığı olub. Ömrünün coşub-çağlayan anlarında Böyük Vətən Müharibəsi başlayıb. Vətənin təhlükəli günlərində, 1941-ci ildə kəndin cavanlarına qoşulub cəbhəyə yola düşüb. Hilal İbrahimovun ilk döyüş yolu Ukraynadan başlayıb. Odlu səngərlərdə həmişə düşmənin başına od ələyib. Heç vaxt ölümdən qorxmayıb.

...Sovet qoşunları sıx bir meşəlikdə mövqe tutmuşdu. Qaranlıq bir gecə idi. Hilala və onunla birgə digər döyüşçülərə komandanlıq tərəfindən tapşırıq verildi. Kəşfiyyatçılar almanların hansı istiqamətdə olduqları barədə dəqiq bir xəbər gətirməli idilər. Sıx bir meşəlikdə Hilal və onun döyüşçü yoldaşları asta-asta, dizin-dizin sürünür, çalışırdılar ki, düşmənlər duyuq düşməsinlər. Qəflətən onlar sərxoş vəziyyətdə olan 2 alman zabiti ilə qarşılaşdılar. Onlar şirin yuxuya dalmışdılar. Fürsəti fövtə vermək olmazdı. Hilal və döyüşçü dostları bir göz qırpımında almanların ağızlarına parça tıxayıb, qollarını bağladılar və dərhal geriyə döndülər. Gətirilmiş “dillər” komandanlığa təhvil verildi. Tələyə düşmüş almanlardan nələr öyrənilmədi? Bu şücaətə görə Hilal İbrahimov və kəşfiyyatçı yoldaşları medalla mükafatlandırıldı...

Həmyerlimiz Hilal İbrahimov Ukraynanın bir çox şəhər və kəndlərinin düşməndən azad olunmasında, həmçinin Macarıstan, Polşa, Rumıniya və digər ölkələrdə rəşadətli döyüş yolu keçdi. Çətin bir döyüş tapşırığını yerinə yetirərkən Ağcabədinin Koroğlu qeyrətli şahin, cəsur oğlu Hilal İbrahimov ağır yaralandı. Hərbi hospitalda müalicə olunduqdan sonra yenidən döyüşlərə atıldı. Berlinə qədər şərəfli döyüş yolu keçdi.

100 yaşlı müharibə veteranının sinəsini orden və döyüş medalları bəzəyir. Hilal İbrahimov müharibədən qayıtdıqdan sonra bir müddət kənddə hərbi müəllim işləmiş, sonra Bakı şəhərində Azərittifaqın Texnikumunu bitirmiş, qiyabi yolla BDU-nun iqtisad fakültəsini qurtarmış, Bərdə, Tərtər, Ağdam və digər bölgələrdə müxtəlif vəzifələrdə çalışmışdır.

Həyat yoldaşı Qəhrəman ana olmuş, 8 qız, 2 oğlan böyütmüşdür. Ömür-gün yoldaşının fani dünyadan tez köçməsi Hilal İbrahimovu olduqca sarsıtmış və xoş növrağı pozulmuşdur.

Bu gün qızları, oğlanları, 24 nəvəsi, 11 nəticəsi axşam-sabah 100 yaşlı, şux duruşlu Hilal kişinin başına pərvanə tək dolanır. Çox vaxt gülüzlü qol-budaqlar şirin nağılları dinləyə-dinləyə babaları Hilalın qolları arasında yuxuya dalır...

**Qədir ASLAN,**
**“Respublika”.**